https://doi.org/10.36719/2706-6185/41/14-17

**Türkan İsmayıllı**
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
ismayilliturkanmehrac@gmail.com

# Xarici dil öyrənilməsinə təsir edən şəxsiyyət faktorları

**Xülasə**

Məqalə xarici dil öyrənilməsinə təsir edən şəxsiyyət faktorlarından bəhs edir. Məqalənin yazılmasında məqsəd ingilis dilini xarici dil kimi öyrənən dil öyrənənlərin öyrənmə prosesində rastlaşdığı şəxsiyyət və xarakter fərqliliklərin ortaya çıxardığı problemləri təhlil etmək, araşdırmadan əldə olunan nəticələri konkretləşdirməkdir. Beynəlxalq ünsiyyətin geniş işlənmə arealını tələb etməsi insanlar arasında mühüm ünsiyyət vasitəsi olan, başqa dillərdən fərqli xüsusiyyətləri ilə seçilən ingilis dilinin istər öyrənilməsini, istərsə də öyrədilməsini şərtləndirir. İngilis dilinin tədrisi ilk baxışdan sadə görünsə də, onun özünəməxsus çətinlikləri vardır. Dil sosial hadisə olsa da, onun mənimsənilməsi prosesi xüsusi yanaşma və amillərin nəzərə alınmasını tələb edir. İngilis dilinin öyrədilməsi zamanı bir çox faktorları nəzərə almaq vacibdir. Bunlardan biri də şəxsiyyət faktorlarıdır. Xarakter fərqlilikləri dil öyrənilməsi prosesinə təsir edən çoxsaylı koqnitiv faktorlardan biridir.

***Açar sözlər***: *ingilis dili, şəxsiyyət faktorları, koqnitiv faktorlar, xarakter çətinlikləri, motivasiya*

**Turkan Ismayilli**
Nakhchivan State University
Doctor of Philosophy in Philology
ismayilliturkanmehrac@gmail.com

# Personality Factors Affecting Foreign Language Learning

**Abstract**

The article discusses personality factors that influence foreign language learning. The purpose of writing the article is to analyze the problems caused by personality and character differences encountered in the learning process of language learners learning English as a foreign language, and to concretize the results obtained from the research. The fact that international communication requires a wide range of development conditions the study and teaching of the English language, which is an important means of communication between people, distinguished by its features different from other languages. Although teaching English seems simple at first glance, it has its own challenges. Although language is a social phenomenon, the process of acquiring it requires a special approach and consideration of factors. There are many factors to consider when teaching English. One of them is personality factors. Character differences are one of the many cognitive factors that affect the language learning process.

***Keywords:*** *English language, personality factors, cognitive factors, character difficulties, motivation*

## Giriş

Müasir dünyada gedən qloballaşma və inteqrasiya meyillərinin durmadan artması, elmi-texniki tərəqqinin, yeni texnologiyaların imkanlarından geniş istifadə olunması qloballaşan dünyanın ümumünsiyyət vasitəsinə çevrilmiş ingilis dilinin əhəmiyyətini və onun işləkliyini ön plana çəkir. Bu, əslində, XX əsrin ortalarından etibarən geniş vüsət alan qloballaşma prosesinin, genişmiqyaslı inteqrasiyanın səbəb olduğu beynəlxalq ünsiyyət ehtiyacına olan tələbatın ödənməsi ilə bağlıdır.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Tədqiqat**

Elmi-metodik ədəbiyyatı nəzərdən keçirərkən tədqiqatçılar tərəfindən xarici dilin öyrənilməsinə təsir edən amillərin aşağıdakı kimi təsnif edildiyinin şahidi oluruq: koqnitiv amillər (dil qabiliyyətləri, öyrənmə strategiyaları); affektiv amillər (münasibətlər, motivasiya, narahatlıq); metakoqnitiv amillər (öyrənmənin planlaşdırılması, özünənəzarət, özünüqiymətləndirmə); demoqrafik amillər (Qədimova, 2003). C. A. Taker qeyd edir ki, xarici dili öyrənərkən aşağıdakı amillər nəzərə alınmalıdır: 1. Şəxsi amillər: təlimin şəraiti; təlimin məqsədi; təlimin müddəti; tədris prosesinin təşkili vasitələri; 2. Sosiomədəni amillər: dilin statusu; öyrənilən dilin digər dillərlə əlaqəsi; mədəniyyətlərin uyğunluğu; Xarici dilin mənimsənilməsinin səmərəliliyini təmin edən bəzi amillər 3. Fərdi amillər: dilöyrənənlərin yaş və psixoloji xüsusiyyətləri (McNeill, 2000). R. Ellis də yaş, qabiliyyətlər, zəka, koqnisiya, münasibətlər, motivasiya və şəxsiyyət amillərinin xarici dillərin öyrənilməsinə təsir edən ümumi məsələlər olduğunu qeyd edir. Xarici dilin öyrənilməsinə təsir edən koqnitiv amillərə yaddaş, diqqət və şüur, unutma və öyrənmə prosesinin baş verdiyi mühit aid edilir. Metakoqnitiv amillərə xarici dili öyrənənin dilə mükəmməl yiyələnməsi, məlumatlı olması vacib hesab edilən öyrənmənin planlaşdırılması, özünənəzarət, özünüqiymətləndirmə, prioritetlərin müəyyən edilməsi strategiyaları aiddir (Geertz, 2003). C. Riçardz koqnisiyanı düşünmə, xatırlama, qavrama və tanıma zamanı istifadə edilən müxtəlif əqli proseslər kimi müəyyən edir. O daha sonra koqnitiv prosesin dil öyrənənlərin xarici dili öyrənərkən istifadə etdikləri nəticəçıxarma, ümumiləşdirmə, deduktiv öyrənmə, nəzarətetmə və yaddasaxlama kimi əqli proses olduğunu müəyyən edir. B. L. Liver qeyd edir ki, koqnisiya müşahidə etmək, diqqət yetirmək, fərziyyə yürütmək, deyilənləri müşahidə etmək, oxunulan və eşidilənləri şərh etmək kimi əqli proseslərdən istifadəni ehtiva edir (Geertz, 2003). Xarici dillərin öyrənilməsinə təsir edən amillər sırasında yer alan metakoqnitiv amillərin də rolunu qeyd etmək lazımdır. C. Riçard metakoqnisiya anlayışına xarici dili öyrənərkən dil öyrənənin fərdi davranış və dilbilmə səviyyəsindən məlumatlı olması, fəaliyyətinə özünün nəzarət etməsi və fəaliyyətini planlaşdırması kimi koqnitiv proseslərin dərkedilməsini aid edir (Griffiths, 2013). Metakoqnisiya şəxsin öz təfəkkürünə nəzarət etmək qabiliyyətini bildirdiyinə görə dilöyrənənin öz əqli prosesləri, fikir və düşüncələri ilə tanışlığı və onların idarə edilməsini ehtiva edir. Xarici dilin mənimsənməsi təlim mühiti, dilöyrədənin səriştəsi, səmərəli təlim metodlarından istifadə, təlim materialının düzgün seçilməsi, müasir texnologiyaların tətbiqi, biliyə nəzarət, eləcə də dilöyrədən və dilöyrənənin fərdi xüsusiyyətləri kimi amillərdən asılıdır. Bununla yanaşı, xarici dilin öyrənilməsində dilöyrənənin emosional vəziyyəti, münasibəti, motivasiya və narahatlıq hissi kimi affektiv amillərin də təsir imkanlarını nəzərə almaq lazımdır. Xarici dilin öyrənilməsi prosesi emosional hisslərin müşayiəti ilə xarakterizə edilir və bilik əldə etmək prosesində dilöyrənənin psixoloji durumu, təlim prosesinin yaratdığı əhval-ruhiyyə bəzən dilin mənimsənməsi istiqamətində əldə ediləcək nəticələrin səmərəliliyinə mane olan və ya yardımçı olan amil kimi özünü büruzə verir. Bu, onunla izah olunur ki, dilöyrənən düşünən varlıq olmaqla yanaşı, həmçinin emosionaldır. Koqnitiv nəzəriyyənin təqdim etdiyi xarici dilin öyrənilməsi mənzərəsi affektiv görünüşlə tamamlanmış hesab edilə bilər (Chen, 2012). Dil öyrənənlərin emosional vəziyyətini diqqətdən kənarda saxlamaqla onların məntiqi və rasional davranmalı və düşünməli olduqlarını əsas gətirərək xarici dilin mənimsənməsinə kömək edən ən rasional təlim modellərini axtarmaq istəyi bəzən bizi yanlış istiqamətə yönəldir. Xarici dilin mənimsənməsində affektiv amilin nəzərə alınması dil öyrədən və dil öyrənənin psixoloji cəhətdən bərabər tərəfdaş kimi çıxış edəcəyi mühitin yaradılmasının təmin edilməsi deməkdir. Dil öyrənənlər müxtəlif şəraitin səbəb olduğu psixoloji maneələr olmadıqda xarici dilin öyrənilməsinə həvəs göstərir və bu istiqamətdə müəyyən irəliləyişə nail olurlar. Dilöyrədən dil öyrənənlərin psixoloji xüsusiyyətlərini nəzərə almayaraq onun üzləşdiyi çətinliklərə biganə qaldıqda və özünün emosional baxımdan qeyri-sabit davranışı ilə dilöyrənənin fərdi durumuna etinasızlıq nümayiş etdirdikdə psixoloji maneələr qabarıq şəkildə özünü büruzə verir. Aparılmış müşahidələrin təhlili göstərir ki, dilöyrədənin auditoriyada təlim mühitini yaratması və ona nəzarət etməsi səbəbindən onun psixoloji xüsusiyyəti dilöyrənənin psixoloji xüsusiyyətindən daha vacibdir (Dörnyei & Murphy, 2010). Dil öyrədən axtarıcı, yaradıcı keyfiyyətlərə malik olduqda, təlimdə şüurluluğun təminində dil öyrənənlərin bilik və anlayış səviyyələrini, fərdi psixoloji xüsusiyyətlərini nəzərə alaraq onları düşündürücü təfəkkür

*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 6 Sayı: 11 / 14-17 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2024 / Volume: 6 Issue: 11 / 14-17 e-ISSN: 2709-4197

fəaliyyətinə səfərbər etdikdə qarşıya qoyulmuş məqsədə daha səmərəli şəkildə nail olmaq mümkündür. Bu zaman dilöyrənənlərin fərdi xüsusiyyətlərinin də nəzərə alınması xarici dilin mənimsənməsinin səmərəliliyinin təmin edilməsində əhəmiyyət kəsb edən məsələlərdəndir. Əbəs yerə deyildir ki, K. Rocers özünün (Öyrənmək azadlığı) adlı əsərində müəllimin əsas vəzifəsinin dilöyrənənin öyrənməsinə şərait yaratmaqdan, onu öyrənmək həvəsi ilə ruhlandırmaqdan ibarət olduğunu göstərir (İsmayilli, 2023). Bu zaman, sözsüz ki, dilöyrənənin motivasiya, xarici dil öyrənmək qabiliyyəti, özünüqiymətləndirmə, yaş həddi və hazırlıq səviyyəsi kimi fərdi psixoloji xüsusiyyətləri nəzərdə tutulur. Koqnitiv nəzəriyyəyə əsasən, dilöyrənənlər nəyi öyrəndiklərini fəal şəkildə düşündükdə və bunu etməyə hazır olub-olmadıqlarını müəyyən etdikdə öyrənməyə başlayırlar. Motivasiya insanı fəaliyyət göstərməyə sövq edən daxili meyil, təkan, hiss, güclü istək və ya ehtiyacları özündə ehtiva edən motivlər birliyidir ki, bu motivlər şəxsiyyətin fəaliyyət istiqamətini müəyyənləşdirir, həmin fəaliyyətin səmərəliliyini artırır. Xarici dilin öyrənilməsinin üç motivini qeyd etmək olar: idraki motiv (dili öyrənilən xalqın mədəniyyəti ilə tanışlıq), peşə ilə bağlı motiv (karyera yüksəlişi, xaricdə təhsil, elmi tədqiqatlar) və mənəvi motiv (yaxın insanların çevrəsində hörmətə layiq olmaq). H. D. Braun motivasiyanı qlobal səviyyədə (xarici dili öyrənmək istəyi), situasiya səviyyəsində (xarici dili sinifdə və ya dil mühitində öyrənmək arzusu) və tapşırıq səviyyəsində (təlim prosesində müəyyən edilmiş tapşırıq). Xarici dilin mənimsənilməsinin səmərəliliyini təmin edən bəzi amillər ları yerinə yetirmək arzusu) fərqləndirir (Haccettepe Universitesi Eğitim Fakültəsi Dergisi, 2009). Motivasiyanın artmasına və ya onun azalmasına təsir edən amilləri üç növünü müəyyən etmək olar: təlim amilləri (istifadə olunan metodlar, dərslik, mətnlər, tapşırıqlar, dərsin aparılması üsulu), dilöyrənənin intellektual səviyyəsi, meylliliyi, inadkarlığı, özünüqiymətləndirmə bacarığı, dilöyrənmə strategiyasını göstərən individual amillər və stereotipləri, digər insanları anlamaq istəyi, öz doğma mədəniyyətinə göstərdiyi münasibət, etnosentrizm səviyyəsini ehtiva edən sosiomədəni amillər. Qeyd etmək lazımdır ki, xarici dilin mənimsənməsi prosesində koqnitiv, metakoqnitiv və affektiv amillərin biri digərinin iştirakını şərtləndirməsi dil öyrənmə prosesinin ümumi mənzərəsinin tamlığını, bütövlüyünü təqdim edərək aşağıda göstərilən məqamların təmin olunmasında mühüm rol oynayır: xarici dildə dilöyrənənləri fəaliyyətə sövq edən material və tapşırıqların seçilməsi; narahatlıq və təlaş yaratmadan yol verilmiş səhvlərin düzəldilməsi yollarının araşdırılması; dilöyrənənlərdə özünəgüvən, özünə əminlik və özünüqiymətləndirmə keyfiyyətlərinin inkişaf etdirilməsinin təmin edilməsi; dilöyrədənin təşəbbüskarlığı ilə xarici dilin öyrənilməsini asanlaşdırmaq məqsədilə əlverişli şəraitin yaradılması; dilöyrənənin sərbəstliyinin təmin edilməsi; dilin üslublarından istifadə etmək bacarığının artırılması və s. Bütün bunlara baxmayaraq, affektiv amilləri nəzərə almaqla bütövlükdə xarici dilin öyrənilməsi ilə bağlı mövcud problemlərin həllinə nail olmaq mümkünsüzdür. Xarici dilin mənimsənməsində affektiv amillərin nəzərə alınmasına məhəl qoymayan bəzi dilöyrədənlər təlimin müvəffəqiyyətliliyinin təmin edilməsini təşkil edən mühüm cəhəti diqqətdən kənarda saxlamış olurlar. Xarici dil təlimi zamanı dilin mənimsənməsinə yardımçı olan amillərə üstünlük verən və dilin müvəffəqiyyətlə öyrənilməsini əngəlləyən amillərin qarşısını almağa çalışan dil öyrədən bu prosesi öz bilik və bacarıqları çərçivəsində səmərəli idrak fəaliyyətinə yönəldə bilər (Griffiths, 2012).

Şəxsiyyət amili xarici dili nə qədər tez və dərindən öyrəndiyinizə təsir edə biləcək idarəolunmaz amildir. Şəxsiyyətimiz yeni təcrübələrə nə qədər açıq olduğumuz, nə qədər mütəşəkkil olduğumuz, daha introvert və ya ekstravert olmağımız, başqaları ilə nə qədər yaxşı işlədiyiniz və ümumiyyətlə nə qədər narahat olduğumuz kimi müxtəlif xüsusiyyətlərdən ibarətdir. Bu xüsusiyyətlərin, dil öyrənmə ilə bağlı olanlar da daxil olmaqla, müxtəlif vəziyyətlərdə necə davranmağınızı qismən müəyyən etdiyi düşünülür.

İntrovert insanlar dil siniflərində çalışqandırlar və oxu və dinləmə vasitəsilə xarici dilləri mükəmməl öyrənirlər. Narahat insanlar xarici dilləri öyrənməkdə daha çox çətinlik çəkə bilərlər. Onlar qorxu, narahatlıq kimi mənfi hisslərin müxtəlif dil öyrənmə fəaliyyətləri zədələdiyini görə bilərlər. Təxmin etdiyiniz kimi, müxtəlif şəxsiyyət tipləri olan insanlar müxtəlif fəaliyyətlərdən ən yaxşı şəkildə öyrənməyə meyillidirlər.

Həvəsləndirilmiş dil öyrənənlər daha uğurlu olurlar, çünki onların aydın öyrənmə məqsədləri olur. Şagirdlər müxtəlif səbəblərə görə həvəslənirlər. Bəziləri başqa bir mədəniyyətlə tanış olmaq

istədikləri üçün dil öyrənməyi seçə bilərlər. Digərləri bunun karyeralarına kömək edəcəyini və ya sosial vəziyyətini yaxşılaşdıracağını hiss etdikləri üçün öyrənə bilərlər. Ancaq motivasiya nəzarətdən kənarda qalan sabit bir amil deyil. Əslində, öyrənməyə müsbət təsir edəcək şəkildə zamanla motivasiyanı dəyişdirmək üçün addımlar atmaq olar. Motivasiyanı artırmağın bir yolu dil öyrənmək üçün səbəbləri aydınlaşdırmaqdır: "Niyə hədəf dilimi öyrənirəm? Mən nəyə nail olmaq istəyirəm?" Hansı koqnitiv, koqnitiv yönümlü və affektiv amillərin (şəxsiyyət tiplərinin təsiri də daxil olmaqla) xarici dil öyrənilməsində uğurun proqnozlaşdırıcıları ola biləcəyini müəyyən etmək üçün çoxlu tədqiqatlar aparılmışdır. Tədqiqatın şəxsiyyət xüsusiyyətlərinin dil öyrənməyə necə mane olduğu və ya üstünlük verdiyinə dair nə dediyini araşdırmadan əvvəl, dil qabiliyyətinin müəyyən edilməsində rol oynayan digər amillər haqqında ən azı əsas anlayışa sahib olmaq üçün daha dolğun ümumi şəkil əldə etmək faydalı olacaq.

## Nəticə

Nəticə olaraq, şəxsiyyət xüsusiyyətləri öyrənməyə birbaşa və dolayı təsir göstərə bilər. Müəllimlər tez-tez kurs administratorları və ya təhsil məsləhətçiləri tərəfindən tələbələrin öyrənmə tərzlərini və çoxsaylı intellektlərini nəzərə almağa təhrik edilir; lakin ola bilsin ki, müəllimləri və ümumilikdə məktəb işçilərini tələbələrin şəxsiyyət tipinin onların öyrənməsinə necə təsir edə biləcəyini daha yaxşı başa düşmək və tədris prosesini şagirdin psixoloji ehtiyaclarına ən yaxşı şəkildə uyğunlaşdırmaq üçün effektiv strategiyalarla təchiz etmək üçün daha çox səy göstərilməlidir. Mədəni amilləri sosial faktorlar kimi nəzərdən keçirmək olar. Bunlara hədəf dilin icması tərəfindən qəbul edildiyini hiss etmək və dilləri öyrənməyə münasibət daxildir. Mədəni amillər dil öyrənmək üçün motivasiyaya, eləcə də dil öyrənməkdə nə qədər uğurlu olmağa təsir göstərir. İkinci dil öyrənmək üçün universal olan "ən yaxşı" yol yoxdur. Bununla belə, yaş, şəxsiyyət, motivasiya, öyrənmə mühitini nəzərə alaraq hansı yanaşmanın daha uyğun olduğunu müəyyən etmək lazımdır.

## Ədəbiyyat

1. Chen, M. (2012). Personality type, Perceptual Style Preferences, and Strategies for Learning English as a Foreign Language. *Social Behavior and Personality*, 40, 1501-1510.
2. Capan, S. A., &amp. Simsek, H. (2014). G*eneral Foreign Language Anxiety among International.* Conference on Education and Educational Psychology: Motivation, attitude, and language learning.
3. Dörnyei, Z. &amp. Murphy, R. S. (2010). *Where does psychology and second language acquisition research connect.*
4. Geertz, C. (2003). *The interpretation of cultures*. Basic Books.
5. Griffiths, Carol. (2012). *Lessons from Good Language Learners.* Cambridge University.
6. *Haccettepe Universitesi Eğitim Fakültəsi Dergisi* [Hacettepe University Faculty of Education Journal]. (2009). Metacognition in foreign language learning and teaching. (pp. 301, 304).
7. Ismailli. (2023). *The Concept Of Affirmativeness In Linguistics And Philosophical Studies*. https//doi.org/10.32782/2710-4656/2022.4.1/45
8. McNeill, D. (2000). *Language, Culture and Cognition*. Cambridge University Press.
9. Qədimova, X. H. (2003). *İnteraktiv təlim metodları və onların tətbiqi yolları*. Metodik tövsiyyə.

Daxil oldu: 02.09.2024
Baxışa göndərildi: 18.09.2024
Təsdiq edildi: 28.10.2024
Çap olundu: 30.11.2024